# Azərbaycan diktə edən dövlətə çevrilib

***Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev geniş məzmunlu nitq söylədi. Dövlət başçımız bu günə qədər Azərbaycanın daxili və xarici siyasətində qət etdiyi yol, hazırda dünyada hökm sürən reallıqların gətirmiş olduğu çağırışlar və bu siyasi-iqtisadi çağırışlara Azərbaycanın verəcəyi cavabla bağlı olduqca aydın təsəvvür yaratdı. Bir sözlə, cənab Prezidentin həm giriş, həm də yekun nitqindən irəli gələn məsələlər dövlətimiz və xalqımız üçün yol xəritəsi hesab olunmalıdır.***



Beynəlxalq münasibətlər sisteminin, dünyanın siyasi və iqtisadi mənzərəsinin olduqca gərgin olduğu bir zaman kəsiyində mövcud siyasi və iqtisadi təlatümlər qarşısında, hətta bir çox nüfuzlu və oturuşmuş dövlətlərin çaşqınlıq və çətinlik yaşamasına baxmayaraq, dövlət başçımızın rəhbərliyi altında Azərbaycan bütün sferalar üzrə uğurla inkişaf etmiş, yaranmış və yarana biləcək çətinliklərin qarşısını vaxtında almağı bacarmışdır. Bir il ərzində daxili siyasətimizin əsas istiqaməti Qarabağın yenidən dirçəldilməsi idisə, xarici siyasətimizin prioritet məsələsi də əldə etdiyimiz Böyük zəfərin leqallaşdırılması, individual olaraq, dövlətlərə, beynəlxalq aktorlara, güc mərkəzlərinə, mötəbər təşkilatlara yaratdığımız reallığı qəbul etdirmək oldu.

Bu gün Qarabağda bərpa-quruculuq işlərinə dövlət başçımızın özünün şəxsən nəzarət etməsi ilə görülən işlər, Zəfərimizə olan mövcud münasibət, dünyanın ən böyük siyasi təsisatı olan BMT-nin xətti ilə Şuşa şəhərində beynəlxalq tədbirin keçirilməsi, Ermənistanla Azərbaycan arasında birbaşa təmasların başlanılması, Qoşulmama Hərəkatı ilə son illərdə daha fəal əməkdaşlığımız ölkəmizin qazandığı uğurlardır. Həmçinin, Prezident İlham Əliyevin şəxsən irəli sürdüyü təşəbbüslər nəticəsində təşkilatın beynəlxalq münasibətlər sistemində nüfuzunun artmasına verdiyimiz töhfə Azərbaycanın nəinki regionun, qlobal siyasi aləmin nüfuzlu aktoru olmasından, onun rəhbərinə göstərilən yüksək etimad və rəğbətdən xəbər verir. Məhz bu konkret addımların nəticəsi olaraq, təşkilat çərçivəsində dövlətimizin sədrliyi daha bir il uzadıldı. Bundan əlavə, İslam Əməkdaşlıq Təşkilatı ilə işğal dövründən başlayan və bu günə qədər də qarşılıqlı olaraq hər zaman müsbət istiqamətdə qurulan münasibətlər davam etdirilir, ATƏT-in yeni reallıqları qəbul etməsi fonunda bu qurumla da münasibətlərimiz uğurla və müsbət istiqamətdə inkişaf etdirilir.

Artıq tarixin arxivinə atılmış Dağlıq Qarabağ münaqişəsini Azərbaycan özü beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək həll etdiyi üçün daha ATƏT-in Minsk qrupunun nizamlaya biləcəyi bir məsələ yoxdur. Ona görə bu siyasi təsisat əhəmiyyətini itirmiş hesab olunur. Azərbaycan Ermənistana münasibətləri normallaşdırmaqdan ötrü 5 prinsipdən ibarət təkliflə çıxış etmişdir. Ölkəmizin mövqeyi ondan ibarətdir ki, iki ölkə arasında münasibətlərin normallaşdırılması və bundan irəli gələn müxtəlif istiqamətlər üzrə məsələlərə istənilən beynəlxalq qurum töhfə verə bilər. Çünki Azərbaycanın mövqeyi haqlı və olduqca aydındır.

Postmüharibə dövrünün reallıqlarını qəbul edən digər bir qurum və son zamanlar vasitəçilik qismində fəallaşan Avropa İttifaqı ilə münasibətlərimiz daha da intensivləşib. Sözügedən qurumla yekun kommunikedə nə “Dağlıq Qarabağ” adı, nə də “münaqişə” sözləri mövcuddur. Artıq Ermənistanın baş naziri Nikol Paşinyan da dərk edir ki, heç bir beynəlxalq qurum onlara bu məsələ barəsində kömək etmək iqtidarında deyil. Çünki hadisələrin axarını geriyə aparmağın mümkünsüz olduğu kimi, yaratdığımız mövcud reallıqdan kənar bir reallığın mövcud olmadığı da görünən yeganə mənzərədir. Ermənistanın baş naziri Nikol Paşinyan ən son olaraq, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından imtinasını etiraf etdi. İndi əsas məsələ birgə Sərhəd Komissiyasının yaradılmasıdır ki, bu da Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında ilk dəfə baş tutan vasitəsiz, yəni birbaşa telefon təması zamanı müzakirə edildi. Sərhədlərin müəyyən edilməsi ilə yanaşı, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qrupunun yaradılması da mühüm əhəmiyyət kəsb edən zəruri məsələdir.

Dünya birliyində baş verən hadisələr daha əvvəllər birbaşa deyil, dolayı vasitələr və alətlərlə, davranış modelləri ilə müşahidə olunurdusa, indi artıq baş verən hadisələr və onların formalaşdırıldığı mövcud düzən birbaşa müşahidə olunur. Baş verən hadisələr dünyanın lokal və qlobal proseslərini təfərrüatlı şəkildə izah etməyə imkanlar yaradırsa, konkret dövlətin və onun liderindən də buna uyğun reaksiyalar tələb edir ki, milli maraqları qorusunlar. Prezident İlham Əliyev də Azərbaycanın milli maraqlarını nəzərdə tutaraq, düzgün xarici siyasət kursu həyata keçirir. Azərbaycan tərəfi bütün bu məsələlərin həll olunması istiqamətində zaman itirmədən başlamaq qətiyyətində və əzmindədir. Bütün uğurların bünövrəsində Prezident İlham Əliyevin şəxsi iradəsi, çevik diplomatiyası və həmin diplomatiyanın mərkəzində milli maraqlarımızın təmin olunması dayanır. Bir tərəfdən Qarabağ və Şərqi Zəngəzurda gedən sürətli quruculuq işləri, digər tərəfdən isə ikitərəfli formatda – individual olaraq böyük dövlətlərlə aparılan əlaqələr, beynəlxalq təşkilatlarla uğurla davam etdirilən intensiv münasibətlərin nəticəsi özünün məntiqi yekununu vermiş oldu.

Dünyanın müxtəlif bucaqları, güc mərkəzləri ilə aparılan qarşılıqlı faydalı əməkdaşlıq prinsipi tərəflər maraq doğuran məsələlərdə qonşu dövlətlərlə də eyni xətt üzrə aparılmışdır. Region ölkələrini əhatə edən 3+3 əməkdaşlıq platforması üzrə yaxın zamanda ikinci görüş keçirilməlidir. Azərbaycan tərəfi hesab edir ki, bu, görüş xətrinə görüş olmalı deyil, konkret nəticələr əldə etmək üçün ümumi səylər göstərilməlidir. Azərbaycanın istər bölgənin inkişafı ilə bağlı aydın baxışları, qəti konstruktiv yanaşması mövcuddur.

Bu gün bir reallıq var ki, Ermənistan zəif, Azərbaycan isə güclüdür. Digər bir tarixi reallığı da biz heç zaman unutmalı deyilik: Ermənistan dövləti illər, əsrlər boyu bizə qarşı ərazi iddiası ilə çıxış edib, soyqırımı törədib. Məhz bu aydın reallıq bizi hər zaman daha güclü olmağa sövq etməlidir. Elə bu reallığı nəzərə alaraq müharibədən dərhal sonra bütün başqa bərpa işləri ilə paralel, Azərbaycan hərbi sahəyə də böyük diqqət ayırır və bu istiqamətdə həm Türkiyə, həm də İsrail şirkətləri ilə yeni, böyük müqavilələr imzalanmışdır.

Bu gün Ermənistanın inkişafı üçün bir yol var: bu yol da Azərbaycan və Türkiyə ilə əlaqələri normallaşdırmaqdan keçir. Bu uzaqgörən siyasətin müəllifi isə bizim dövlət başçımızdır. Bakı – Tbilisi – Ceyhan neft boru kəmərinin reallaşdırılması zamanı Ermənistanın, adətən, nəfəsini kəsərək onu regional layihələrdən təcrid etməklə məhz bu uğurların təməli zamanında düzgün müəyyənləşdirildi.

Dövlət başçımız çıxışı zaman mina təmizlənməsi ilə bağlı mütəxəssis çatışmazlığını da diqqətə çatdırdı, QHT-ləri və fondları bu işlərdə Azərbaycana dəstək olmağa çağırdı. Vaxtilə ölkəmizin hərb sənayesini gücləndirməsi istiqamətində atdığı addımlara qarşı çıxan, Türkiyənin gündən-günə inkişaf edən hərb sənayesini hədəfə alan bəzi dairələr indi tamamilə fərqli mövqedən çıxış edirlər. Bu və digər aydın görünən səbəblər baxımından da insan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutan beynəlxalq təşkilatlar Azərbaycana da diqqət yetirməli və ikili standartlardan çəkinməlidirlər.

***Şəbnəm HƏSƏNOVA,***
***politoloq***